# BİR YAŞIL YARPAQ

**İnsan ömrü yaşıl bir yarpağa bənzəyir. Bu yarpaq yaşıl olur, yaşayır, bir gün də saralıb xəzana dönür. Payız gəlir və ömür tamam olur, o yarpaq saralıb budaqdan düşür. Budaqdan qopan saralmış yarpaqlar bax, beləcə yerə düşür, tamamlanmış bir ömrə nöqtə qoyur...**

Uzun illər tanıdığım və dostluq elədiyim Allahın dərgahına qovuşmuş Müşfiq Cabiroğlu da bir yaşıl yarpaq ömrü yaşadı. Saraldı, soldu və budaqdan qopub dostlarının çiynində son mənzilə yola salındı. Hələ də onun ölümünə inana bilmirəm... Hələ də elə bilirəm ki, bizim müştərək dostumuz, böyük bəstəkar Oqtay Kazımının oğlu Elçin Kazımi deyəcək ki, Faiq, dur gedək Müşfiqlə görüşək, bir stəkan çay içək. Amma hər şey gözlədiyimin əksinə baş verir...

Dostum Elçin Kazımi bu günlər yenicə çapdan çıxmış "Müşfiq Cabiroğlu - 55" kitabını bir dostu ilə mənə göndərir. Beləcə, o kitabı vərəqləyirəm, kitabın ideya və maddi dəstək müəllifi Gültəkin Novruzovanın çox gözəl tərtib etdiyi "Müşfiq Cabiroğlu-55"-i görürəm. Kitaba ön sözü onun redaktoru, şair, ssenarist İkram Əliyev yazıb. Gözüm onun qələmə aldığı ön sözdəki bu sətirlərə sataşır: "Onun şeirlərini oxuyuram... Hal şeirləridir... Əksəriyyəti ithafdır... Doğmalarının, yaxınlarının sevincinə şərik olur, qəmini bölüşür, uğurlarına fərəhlənir şeirlərində..."

Bu ön sözlə İkram Əliyev Müşfiq Cabiroğlunun gözəl bir portretini yaradır. Onun necə bir ürək sahibi olduğunu, millətinə, xalqına sevgisini çatdırır. Onu da çatdırır ki, Müşfiq Cabiroğlu həm istedadlı şair idi, həm yazıçı idi, həm də publisist idi.

... Onun çöhrəsində həmişə təbəssüm olardı. Böyük Cabir Novruzun övladı olsa da, heç vaxt yekəxanalıq, təkəbbürlük və özündən razılıq hiss etdirməzdi. Elə ona görə də onu tanıyanlar Müşfiqin bu səmimiyyətinə, sadəliyinə və olduğu kimi görünməyinə sevgi ilə yanaşırdılar.

Kitabda Müşfiqin şeirləri, publisist yazıları, mahnılara yazdığı sözlər, eləcə də onun barəsində tanınmış yazarların və ictimai xadimlərin xatirələri yer alıb. Bununla yanaşı, Müşfiqin ailəsi, dostları və sevdiyi insanlarla adi günlərdə, toylarda, şənliklərdə çəkdirdiyi fotolar da toplanıb. Bir-birindən gözəl, publisist yazılar, məqalələr və portret oçerkləri bir daha Müşfiq Cabiroğlunu böyük oxucu kütləsinə tanıtdırır və sevdirir. Qələmə alınan hər bir yazıda, hər bir məqalədə Müşfiqin özü, sözü, ürək döyüntüləri, Allaha və dünyaya olan böyük




məhəbbəti əksini tapıb. O yazılarda boğazdan yuxarı qeyri-səmimi sözlər, ifadələr tapmaq mümkün deyil.

Müşfiq Cabiroğlu nə qədər istedadlı idisə, bir o qədər də yumorlu, duzlu, dostların yanında dərdini danışmayan adam kimi tanınırdı. Mən bir dəfə görmədim ki, o, öz həyatından, taleyindən, dərdindən-kədərindən söhbət açsın. Hansı ki, Müşfiq atasını itirmişdi, anasını itirmişdi və ən nəhayət, üç qardaşını itirmişdi. Bu dünya boyda dərdi Müşfiq Cabiroğlu heç kəsə, heç kimə ağrıacıyla danışmazdı. Əksinə, o, dostları ilə görüşəndə bu ağır dərdləri unudar, onlara sevgi, məhəbbət ərməğan edərdi.

Tanınmış şairlərdən və publisistlərdən Musa Ələkbərli, Mahir Qabiloğlu, Arzu Nəbioğlu, Təbriz Novruzlu, Rasim Nəbioğlu, Elçin Kazımi, Ataş Hüseyn, Qafar Əsgərzadə, Elşad Dağlı, Emil Cəfərov, Vüqar Xızılı Müşfiqin ölümü ilə bağlı bir-birindən rəngarəng, bir-birindən yaddaqalan və bir-birindən fərqli yazılar qələmə alıblar.

**Bax, həmin yazılarda bir daha hiss edirsən ki, Müşfiq Cabiroğlu ölməyib. Sadəcə olaraq, o, dünyasını dəyişib. Çünki Allaha böyük sevgisi olan, bu dünyada öz izini qoyan, sevgisini, məhəbbətini insanlara paylayan işıqlı adamlar heç vaxt ölmürlər. Ən azından onu xatırlayan sonuncu adam ölənə qədər o yaşayır. Müşfiq Cabiroğlunun da on minlərlə oxucuları, dostları və sevdiyi insanlar tez-tez xatırlayır və yada salırlar. Deməli, Müşfiq Cabiroğlu bu gün də sağdı və aramızdadı...**

**Faiq QİSMƏTOĞLU**

Ədalət.- 2020.- 19 fevral. S. 3.

- Ya
sində y